**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

---

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

==============================================

*Əlyazması hüququnda*

**ƏHMƏDZADƏ EMIN NEMƏT OĞLU**

# KƏND TƏSƏRRÜFATININ INTENSIV INKIŞAFININ TƏNZIMLƏNMƏSI MEXANIZMININ FORMALAŞMASI

**5312.01 – "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2014**

Dissertasiya işi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad emlər doktoru, professor
**Rəsul Ənvər oğlu Balayev**

**Rəsmi opponentlər:** iqtisad elmlər doktoru
**Anar Fazil oğlu Abbasov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Oktay Qulam oğlu Məmmədli**

**Aparıcı təşkilat: AMEA-nın Elmi İnnovasiyalar Mərkəzi**

Müdafiə 29 may 2014-cü il saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 28 aprel 2014-cü ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Əhalinin artımı, istehsal və sosial infrastruktur şəbəkəsinin genişlənməsi, urbanizasiya proseslərinin sürətlənməsi, ekoloji böhranın nəticələri və bu kimi digər səbəblərdən adambaşına düşən kənd təsərrüfatına yararlı torpaq sahələri azalır ki, bu da həmin resurslardan daha intensiv istifadəni tələb edir. İntensiv inkişaf kənd təsərrüfatının və ümumilikdə kənd həyat tərzinin xarakterində və tempində müxtəlif dəyişikliklərlə müşaət olunur.

Kənd təsərrüfatında intensiv inkişafın əhatə dairəsinin genişlənməsi, aqrar iqtisadiyatın dövlət tənzimlənməsinin adekvat mexanizminin formalaşdırılması və inkişaf etdirilməsi məsələlərini gündəliyə çıxarır.

Aqrar islahatların müasir mərhələsində sahədə intensiv inkişafın səmərəli tənzimlənməsi üçün əlverişli şəraitin formalaşması innovasiyalı yanaşmaların tətbiqini tələb edir. Kənd təsərrüfatı istehsalının innovasiyalı intensivləşməsinin alternativsizliyi müvafiq tənzimləmə mexanizminin dünya təcrübəsinin hərtərəfli təhlilini, müqayisəli qiymətləndirilməsi sayəsində təkmilləşdirilməsini obyektiv zərurətə çevirir. Şübhə yoxdur ki, bu halda yalnız mövcud sistemin fəaliyyətini yeni keyfiyyət səviyyəsinə qaldıra bilən qabaqcıl təcrübə nəzərdə tutulur.

Kəskinləşən rəqabət mühitində kənd təsərrüfatında intensivləşməyə dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsi imkanları qiymətləndirilməli, həmin imkanların gerçəkləşdirilməsinin üsul və vasitələri müəyyənləşdirilməlidir. Bu baxımdan aqrar sahədə intensiv inkişafın investisiya proseslərinin tənzimlənməsinin fəaliyyətdə olan mexanizminin səmərəliliyi qiymətləndirilməli, mexanizmin formalaşması prioritetləri əsaslandırılmalı, investisiya cəlbediciliyinin artırılması istiqamətində görülməsi zəruri olan tədbirlər müəyyən edilməlidir.

Aqrar sahədə proteksionist siyasət, intensiv inkişaf edən kənd təsərrüfatı məhsulları ixracının dövlət tənzimlənməsi sistemi və beynəlxalq ticarətin liberallaşdırılması xəttinin uzlaşdırılması problemləri xüsusi aktuallıq kəsb edir.

Odur ki, kənd təsərrüfatının intensiv inkişafının tənzimlənməsi mexanizminin formalaşdırılması prosesləri tezliklə başa çatdırılmalı, onun elmi təminatı müasir tələblər səviyyəsinə qaldırılmalıdır. Əlbəttə, həmin məsələlərin həlli kompleks araşdırmalar sayəsində mümkündür. Qeyd olunanlar dissertasiya işinin mövzusunun aktuallığını şərtləndirmişdir.

**Problemin öyrənilməsi vəziyyəti.** Kənd təsərrüfatının inkişafının tənzimlənməsi mexanizminin formalaşmasının elmi – nəzəri və metodoloji – 



praktiki məsələləri Azərbaycanın iqtisadçı alimləri Ə.Mahmudov, A.Nadirov, Z.Səmədzadə, M.Sadıqov, İ.Abbasov, E.İbrahimov, E.Quliyev, S.Salahov, H.Allahverdiyev, B.Ataşov, R.Balayev, A.Əhmədov, G.Gənciyev, M.Hüseynov, H.Xəlilov, İ.İbrahimov, A.Abbasov, M.Musayev, A.Tağıyev, O.Məmmədli, Ə.Verdiyev və başqaları tərəfindən araşdırılmışdır.

İntensiv inkişafının tənzimlənməsi mexanizminin səmərəliliyinin yüksəldilməsi istiqamətində məhsuldar fəaliyyət göstərən xarici ölkə alimləri sırasında L.Abalkin, İ.Qerçikova, T.Qritsyun, Q.Ruzavin, S.Mixneviç, N.Popov, E.Serova və başqaları xüsusi qeyd olunmalıdır. Həmin alimlərin əsərlərində kənd təsərrüfatı istehsalının intensiv inkişafının tənzimlənməsi mexanizmi və onun səmərəliliyi problemləri tədqiq olunmuşdur.

Eyni zamanda, onu da qeyd etməliyik ki, adları çəkilən alimlər öz əsərlərində kənd təsərrüfatı istehsalının, o cümlədən intensiv inkişaf edən istehsalın tənzimlənməsinin müxtəlif aspektlərini araşdırsalar da, onlar məhz intensiv inkişaf edən istehsalın tənzimlənmə müxanizminin formalaşması problemlərinin həllini qarşılarına məqsəd qoymamışlar. Odur ki, kənd təsərrüfatı istehsalının intensiv inkişafının tənzimlənməsinin nəzəri və praktiki problemlərinin həlli, aqrar sahədə intensivləşməyə dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsi, intensiv inkişafın investisiya proseslərinin tənzimlənməsi mexanizminin formalaşması, ixracının dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi kimi aktual məsələlər öz kompleks həllini gözləyir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tətqiqatın əsas məqsədi kənd təsərrüfatında intensiv inkişaf amillərindən istifadənin mövcud vəziyyətinin qiymətləndirilməsi, istehsalın intensivləşməsi proseslərinin tənzimlənməsi mexanizminin səmərəli formalaşması imkanlarını aşkara çıxarmaqla, onların reallaşdırılması üçün təklif və tövsiyələr hazırlamaqdır.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- kənd təsərrüfatının intensiv inkişafının konseptual əsaslarının araşdırılması;
- kənd təsərrüfatı istehsalında intensivləşmə proseslərinin tənzimlənməsinin müasir vəziyyəti;
- intensivləşmənin tətbiq imkanlarının və qabaqcıl təcrübənin müqayisəli təhlilinin verilməsi;
- aqrar istehsalın tənzimlənməsinin təsərrüfatların intensiv inkişafına təsirinin müəyyənləşdirilməsi;
- kənd təsərrüfatında ixtisaslaşmanın və onun tənzimlənməsinin mövcud vəziyyətinin təhlili və inkişaf meyillərinin aşkar edilməsi;

- intensiv inkişafa yönəldilmiş investisiyaların müəyyənləşdirilməsi;

- kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinin inkişaf istiqamətlərinin əsaslandırılması.

**Tədqiqatın obyekti.** Azərbaycan Respublikasında mülkiyyət formalarından asılı olmayaraq kənd təsərrüfatı məhsulları istehsal edən təsərrüfatlar.

**Tədqiqatın predmeti.** Kənd təsərrüfatı istehsalının intensivləşməsi proseslərinin tənzimlənməsinin meylləri və qanunauyğunluqları, müvafiq mexanizmi formalaşdıran amillər.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tətqiqat işinin nəzəri-metodoloji əsasını Azərbaycan Respublikasının və xarici ölkələrin iqtisadçı alimlərinin kənd təsərrüfatının intensivləşdirilməsinin tənzimlənməsinə həsr olunmuş əsərləri, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları və digər normativ sənədləri təşkil edir.

Mülkiyyət plüralizminə əsaslanan iqtisadi fəaliyyətin və tənzimlənən aqrar - iqtisadi münasibətlərin səmərəliliyini əks etdirən müddəalar tədqiqatın metodoloji əsasını təşkil etmişdir.

**Tətqiqatın informasiya bazası.** Tətqiqat işində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı və İqtisadi İnkişaf Nazirliklərinin, Aqrar Elm Mərkəzinin, elmi-tədqiqat institutlarının materiallarından istifadə olunmuşdur.

Tədqiqat prosesində ümumiləşdirmə, müqayisəli təhlil, monoqrafik və bir sıra digər statistik - iqtisadi üsullardan istifadə edilmişdir.

**Tətqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

-kənd təsərrüfatında intensiv inkişaf amili və onun iqtisadi göstəriciləri bazar münasibətləri baxımından əsaslandırılmışdır;

- kənd təsərrüfatının intensiv inkişafını əks etdirən göstəricilər sistemi təkmilləşdirilmişdir;

-intensivləşmənin tənzimlənməsində beynəlxalq təcrübənin materialları araşdırılmış və münasib elementlərin kənd təsərrüfatına tətbiqinə dair tövsiyyələr irəli sürülmüşdür;

- kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinin tənzimlənməsində mövcud sistemin xüsusiyyətləri araşdırılmış və müvafiq təkliflər hazırlanmışdır;

- kənd təsərrüfatında intensivləşməyə dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsi imkanları və onların reallaşdırılması vasitələri müəyyən edilmişdir;



- kənd təsərrüfatının intensiv inkişafına yönəldilən investisiyalardan səmərəli istifadə olunmasına aid təklif və tövsiyələr hazırlanmışdır;

-intensivləşmənin kənd təsərrüfatı məhsullarının artırılmasına təsirinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər irəli sürülmüşdür;

**Tədqiqatın təcrübi əhəmiyyəti**. Əldə edilmiş nəticələr və əsaslandırılmış təkliflər respublikamızda kənd təsərrüfatının intensiv inkişafının tənzimlənməsi mexanizminin səmərəliliyinin yüksəldilməsinə, aqrar sahənin inkişafı tempinin artırılmasına imkan verəcəkdir.

Hazırlanmış təklif və tövsiyələrdən kənd təsərrüfatı istehsalının intensivləşməsində və onun təkmilləşdirilməsində, eyni zamanda qəbul olunmuş müvafiq dövlət proqramlarında istifadə edilə bilər.

**Tətqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi.** Tətqiqatın əsas müddəalar və nəticələri Az.ETKTİ və Tİ-da keçirilən “İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemləri” mövzusunda beynəlxalq elmi - praktik konfransının (Bakı, 2010), AMEA İqtisadiyyat İnstitutunda keçirilən "Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransının (Bakı, 2011), Az.ETKTİ və Tİ-da keçirilən “Aqrar iqtisadiyyatın aktual problemləri” mövzusunda beynəlxalq elmi-praktik konfransının (Bakı, 2012) materiallarında, “Kənd təsərrüfatı istehsalının tənzimlənməsinin mövcud sisteminin təhlili” (Bakı, 2011), “İslahatların müasir mərhələsində kənd təsərrüfatı istehsalının intensiv inkişafı və tənzimlənməsi” (Bakı, 2012), “Характеристика среды интенсивного развития сельского хозяйства в аграрном секторе Азербайджана” (Москва, 2013) və digər məqalələrdə öz əksini tapmışdır.

Dissertasiyanın əsas nəticələri, kənd təsərrüfatının intensiv inkişafının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi barədə təklif və tövsiyələr Lənkəran Regional Aqrar Elm Mərkəzinə təqdim olunmuş və istifadə üçün qəbul edilmişdir (27 dekabr 2010-cu il tarixli 068 saylı arayış).

Dissertasiya işinin mövzusu üzrə ümumi həcmi 8,6 çap vərəqi olan 16 elmi məqalə və tezis çap olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olub, ümumi həcmi 126 səhifəni əhatə edir. İşdə 16 cədvəl, 2 şəkil və 141 adda ədəbiyyat siyahısı verilmişdir.

## İŞIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsədi və vəzifələri, ob-

yektin predmeti, nəzəri – metodoloji əsasları, informasiya bazası, elmi yeniliyi, təcrübi əhəmiyyəti, tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi şərh olunur.

**“Kənd təsərrüfatının intensiv inkişafının tənzimlənməsinin konseptual problemləri” adlı birinci fəsildə** aqrar islahatlar sistemində intensiv inkişafın tənzimlənməsinin aktual problemləri tətqiq olunmuş, kənd təsərrüfatında intensiv inkişafın tənzimlənməsinin dünya təcrübəsi müqayisəli formada şərh olunmuşdur.

Kənd təsərrüfatına yararlı torpaq sahələrinin məhdudluğu, sənayenin, istehsal infrasturukturunun inkişafı, urbanizasiya proseslərinin intensivləşməsi və bu kimi digər səbəblərdən kənd təsərrüfatının intensiv inkişafını obyektiv zərurətə çevrilmişdir. İnkişafın bu yolu suvarılan əkin sahələrinin genişlənməsində və kənd təsərrüfatına yararlı torpaq sahələrində onun xüsusi çəkisinin yüksəlməsində ifadə olunur.

İntensiv inkişaf ümumilikdə kəndin həyat tərzinin xarakterində və kənd təsərrüfatında çoxcəhətli dəyişiklərlə müşaət olunur. İlk növbədə, bu xərc amili ilə bağlıdır. İntensiv inkişaf istehsalın artması müqabilində məhsul vahidinə xərcin azalmasını nəzərdə tutur. Kənd təsərrüfatında intensivləşmədən əldə edilən iqtisadi səmərə dedikdə, torpaq sahəsi vahidinə düşən investisiyanın məbləğinin artması müqabilində məhsuldarlığın üstün templə yüksəlməsi başa düşülür. Belə yanaşma, artan investisiyalar hesabına əkin sahələrinin münbitliyinin artmasına, bitkilərin məhsuldarlığının yüksəldilməsinə mühüm təsir göstərir.

Torpağın münbitliyinin yüksəldilməsi intensivləşmə prosesinin ayrılmaz atributu olmalıdır. Obyektiv reallıqda bu tələbə həmişə riayət edilməsə də, istehsalın rentabellik səviyyəsi və təsərrüfatın göstəriciləri imkan verdikcə torpağın münbitliyinin yüksəldilməsi ön plana keçir. Kənd təsərrüfatında mexanikləşmənin inkişafı, mineral gübrələrdən, kimyəvi preparatlardan optimal istifadə, suvarılan sahələrin melorasiyası intensiv inkişafın zəruri şərtləri kimi elmi cəhətdən əsaslandırılmış və uzunmüddət üçün hazırlanmış tədbirlər planında reallaşdırılır.

İstehsalın intensiv inkişafının ilk mərhələsində məhsullara enerji sərfi kəskin surətdə artır. İqtisadi inkişaf və enerji təhlükəsizliyini təmin etmə səviyyəsindən asılı olmayaraq istənilən ölkə istehsalın enerji tutumu göstəricisini daim diqqət mərkəzində saxlayır. Təbii ki, bu və başqa səbəblərdən, digər maddi istehsal sahələrində olduğu kimi, kənd təsərrüfatı istehsalında da intensivləşmənin səmərəliliyinin qabaqcadan müəyyənləşdirilməsi zərurəti yaranır. İstehsalı intensivləşdirən hər bir təsərrüfatın risk - menecmenti sahəsində məsləhətə və müxtəlif xidmətlərə ciddi ehtiyacı vardır. İnnovasiyalı



inkişafla bağlı qərar qəbulunda bu xüsusilə önəmlidir.

İntensiv inkişafının iqtisadi səmərəliliyi mütərəqqi texnika və texnologiyaların tətbiqi, fəaliyyətin institutsional təminatının yaxşılaşdırılması, əməyin elmi təşkili, istehsalın optimal strukturunun formalaşması, vəsait mənbələrinin könüllü birləşməsi sayəsində maliyyələşmənin etibarlılığı və ahəngdarlığı kimi amillərin qarşılıqlı təsiri altında baş verir.

İntensiv inkişaf şəraitində risk ehtimalı demək olar ki, azalmır. Bunun əvəzinə isə onların xarakterində dəyişiklik baş verir. Təbii risklər, qismən texnogen risklərlə əvəzlənir və ya onlara əlavə olunur. Bazar konyunkturunun dəyişmə tezliyi sürətləndikcə, onları izləmək imkanı məhdudlaşır, bazar riskləri güclənir, kənd təsərrüfatının maliyyə dayanıqlığı zəifləyir. Bu və digər səbəblərdən antirisk tədbirləri xüsusi aktuallıq kəsb edir.

İşdə kənd təsərrüfatı istehsalının intensivliyi səviyyəsinin qiymətləndirilməsi üçün, istifadəsi məqbul hesab olunan natural göstəricilər müəyyənləşdirilmişdir. Resurslardan birgə istifadə mühitinin, xüsusilə, onların optimal nisbətini səciyyələndirən göstəricilərin təhlilə cəlb edilməsi üçün, minimum xərcləri təmin edən, resursların səmərəli (zəruri tələbatlara müvafiq) kombinasiyası vasitəsilə əldə edilən allokasiya səmərəliliyi nəzərə alınmalıdır. Daha sonra intensivləşmənin fərqli aspektlərinin aralıq nəticələrini müqayisəli qiymətləndirməyə imkan verən göstəricilər müəyyən olunur.

İntensiv inkişafın tənzimlənməsi strategiyası, ilk növbədə makroiqtisadi inkişafın səciyyəsindən və onu əks etdirən başlıca parametrlərin dinamikasından asılıdır. Ölkəmiz nəinki makroiqtisadi sabitliyi qoruyub saxlamış, hətta iqtisadi artıma görə dünyanın aparıcı ölkələri sırasına çıxmışdır. Dinamik iqtisadi artım neft və qeyri - neft sektorunun davamlı inkişafı hesabına təmin edilmişdir. Qeyri - neft sektorunun üstün inkişafı strategiyasında kənd təsərrüfatının intensiv inkişafına dövlət himayəsi siyasəti elementləri gücləndirilmiş, adekvat tənzimləmə və stimullaşdırma mexanizminin formalaşdırılması üçün elmi cəhətdən əsaslandırılmış addımlar atılmışdır.

Aqrar sahədə intensiv inkişaf kənd təsərrüfatı istehsalına, aqroemal proseslərinə, müasir maddi - texniki bazanın formalaşmasına və hazır məhsulun istehlakçılara çatdırılması şəbəkəsinə vəsait qoyuluşunu artırmaqla əhalinin keyfiyyətli ərzaq məhsulları və sənayenin kənd təsərrüfatı mənşəli xammalla təminatı səviyyəsini yüksəltməyə yönəlmişdir.

Aqrar sahənin intensiv inkişafının tənzimlənməsi üçün geniş arsenala malik iqtisadi metodlar planlaşdırma (strateji, indikativ və məqsədli), büdcə - vergi (büdcənin formalaşdırılması və idarə edilməsi, vergi siyasətinin formalaşdırılması, vergi sisteminin tənzimlənməsi), pul - kredit (pul - kredit tənzimlənməsi, antiinflyasiya tənzimlənməsi, faiz dərəcələrinin tənzimlən-

məsi və s.), valyuta, sosial (sosial proqramlaşdırma, məşğulluğun tənzimlənməsi, gəlirlərin tənzimlənməsi və s.) və xarici iqtisadi fəaliyyətin (gömrük tarifləri və s.) tənzimlənməsinin həyata keçirilməsini nəzərdə tuturlar.

Aqrar iqtisadiyyatın dövlət tənzimlənməsinin nöqsan və çatışmazlıqlarına, bir sıra neqativ nəticələrinə göz yummadan, bu sistemin inkişafı və təkmilləşdirilməsi vacibdir. Onu da qeyd edək ki, tənzimləmə iqtisadiyyatın bazar prinsiplərini üstələməməli, intensiv inkişafa maliyyə dəstəyinin verilməsi aqrar sahədə rəqabət mühitini pisləşdirməməlidir. İntensivləşmə prosesləri, birmənalı surətdə aqrar bazarda qiymətlərə təsir etmək iqtidarında deyildir. Hazırda belə vəziyyəti şərtləndirən iki amil diqqəti cəlb edir. Bunlardan birincisi, əhalinin artan alıcılıq qabiliyyəti, ikincisi isə postsovet ölkələrində açıq inkişaf modelinin idxalla rəqabət imkanlarını ciddi surətdə məhdudlaşdırmasıdır.

Prinsip etibarı ilə kənd təsərrüfatı istehsalının subsidiyalaşdırılması, onun intensiv inkişafına xidmət etməlidir. Başqa sözlə, subsidiyalaşdırma, ucuz kreditlərlə təminat və digər bu kimi maliyyə tənzimlənməsi vasitələri aqrar sahənin intensiv inkişafının nəticələrində ifadə olunmalı, özünü doğrultmalıdır. İqtisadi artımın həlledici amili kimi aqrar sahəyə yönəldilən investisiyaların səmərəliliyinin yüksəldilməsi, tədbirlər kompleksinin əməli faydalılığı, gəlirliyi və sahənin maliyyə təhlükəsizliyi meyarları ilə ölçülməlidir.

İntensiv inkişafın tənzimlənməsi üçün əlverişli mühiti formalaşdırmaq baxımından aşağıdakı problemlərin həlli xüsusi aktuallıq kəsb edir: - aqrar sahədə istehsal - kommersiya fəaliyyətinin həyata keçirilməsində müstəqil təsərrüfatçılıq və kooperasiya əlaqələrinin birliyini təmin edən mexanizmin yaradılması, əlverişli kreditləşdirmə şəraitində kənd təsərrüfatı məhsulları istehsalçılarının öz vəsaitlərindən məcburi istifadə rejiminin optimalaşdırılması, "fermer problemi"nin həllində, başqa sözlə, kənd təsərrüfatında çalışanların gəlirlərinin artırılmasında qeyri - qiymət amillərindən daha fəal istifadə edilməsi, sahədə daxili motivasiyanı gücləndirən və rəqabət şəraitini pisləşdirməyən mexanizmin formalaşdırılması, daxili bazar və beynəlxalq qiymətlərin paritetliyini təmin edən prioritetlərin əsaslandırılması, istehsalın stimullaşdırılması və istehsala subsidiyaların müqayisə oluna bilən göstəricilər sisteminin işlənib başa çatdırılması, mükəmməl informasiya və məsləhət texnologiyalarının formalaşdırılması.

İqtisadiyyatın dövlət tənzimlənməsinin makro və mikro səviyyələrdə, bir – birini tamamlayan şəkildə həyata keçirilməsi Azərbaycanın seçimidir



və xüsusilə son onillikdə özünü tamamilə doğrultmuş seçimdir. Davamlı makroiqtisadi sabitliyin təminatı, ÜDM – in artım tempinə görə Azərbaycanın uzun illər dünyada öncül mövqedə durması, dünya maliyyə böhranına qarşı ən yüksək immunitet nümayiş etdirməsi bunu əyani sübut edir.

İşdə, Qərbi avropa, sosialist düşərgəsində olmuş Şərqi Avropa ölkələrinin, ABŞ, Yaponiya və bir sıra digər ölkələrin kənd təsərrüfatının intensiv inkişafının tənzimlənməsinin təcrübəsi müqayisəli qiymətləndirilmiş, ölkəmiz üçün dəyərli sayılan nümunələr seçilmişdir. Bəzi ölkələrdə məhsulların bir qisminin (ABŞ-da və İspaniyada 10 faizinin, Fransada və Yunanıstanda istehlak məhsullarının 20 faizinin, Danimarkada 6 faizinin, Avstraliyada əsasən ərzaq məhsullarının) qiymətləri üzərində nəzarət qiymətin tənzimlənməsi mexanizmini əvəzləyir. Türkiyədə qiymətlərin liberallaşdırlıması xətti dəstəklənsə də, onlar üzərində nəzarət saxlanması nəzərdə tutulur. Kanadada qiymətin tənzim olunmasının vahid sistemi olmadığından qiymətlər əsasən tələb və təklifdən asılı olaraq müəyyən olunur.

İşdə aqrar istehsala vergi güzəştlərinin tətbiqi mexanizminin təkmilləşdirilməsi imkanları qabaqcıl xarici təcrübədən istifadə müstəvisində qiymətləndirilmişdir.

**"Kənd təsərrüfatının intensiv inkişafının tənzimlənməsinin mövcud sistemi" adlı ikinci fəsildə** intensiv inkişaf mühiti xarakterizə edilmiş, kənd təsərrüfatı istehsalının tənzimlənməsinin mövcud sistemi təhlil olunmuş, kənd təsərrüfatında ixtisaslaşmanın və onun tənzimlənməsinin vəziyyəti qiymətləndirilmişdir.

İntensivləşmə mühitinin və onun tənzimlənməsinin səciyyələndirilməsi kənd təsərrüfatı istehsalının xüsusiyyətlərini, ilk növbədə əsas və dövriyyə vasitələri və işçi qüvvəsindən istifadənin, məhsul buraxılışının mövsümlüyünü, torpağın əsas istehsal vasitəsi olmasını, fəaliyyətin son nəticələrinin təbii - iqlim şəraitindən həlledici dərəcədə asılılığını, əmək bölgüsü və istehsalın ixtisaslaşdırılmasında özünəməxsus cəhətləri zəruri səviyyədə nəzərə alınmasını tələb edir. Kənd təsərrüfatında intensiv inkişaf mühitini səciyyələndirmək üçün resurs və istehsal potensialı xarakterizə edilmiş, onların fəallaşdırılması imkanları qiymətləndirilmişdir. Sahədə istehsalın intensivləşməsi səviyyəsinin göstəricisi kimi əkin sahələrinin kənd təsərrüfatına yararlı torpaqlarda xüsusi çəkisi diqqətə layiqdir. 2000–ci ildə əkin yerlərinin kənd təsərrüfatına yararlı torpaq sahələrində xüsusi çəkisi 37,3% olduğu halda, 2011-ci ildə 38,7%, 2012-ci ildə isə 38,9% təşkil etmişdir.

Bitkiçilikdə intensivləşmə mühitini bilavasitə şərtləndirən amil kimi suvarmadan istifadə imkanları mövcud su ehtiyatları, onun ölkə ərazisində formalaşması dərəcəsi, tranzit suların miqdarı, daxili çaylarda axının tən-

zimlənməsi səviyyəsi, su itkisinin miqdarı və s. göstəricilərlə xarakterizə olunur. Azərbaycan üçün müvafiq göstəricilər aşağıdakı kimidir: mövcud su ehtiyatlarının yalnız 30 faizinin (10 milyard kub m) ölkə ərazisində formalaşır; ölkənin öz su ehtiyatı tranzit sulardan iki dəfə azdır; daxili çaylarda axının tənzimlənməsi sistemi, demək olar ki, fəaliyyət göstərmir; təqribi hesablamalara görə ildə 3 milyard kub metr su itkisi baş verir.

Heyvandarlıqda intensiv inkişaf imkanlarının reallaşmasının ilkin ifadəsi olan məhsuldarlığın dinamikası müsbət olsa da, arzu olunan temp əldə edilməmişdir. Belə ki, bir baş inək və camışdan süd sağımı, 2000 - 2012-ci illər ərzində cəmi 18,9% artmışdır (şəkil 1).




Şək. 1. Mal-qara və quşların məhsuldarlığının dinamikası (bütün təsərrüfat kateqoriyalarında, 2000=100).

İstehsalının intensivləşməsi bilavasitə məhsuldarlığın dinamikasında ifadə olunur. Təhlil dövründə bitkiçilikdə məhsuldarlıq səviyyəsi xeyli yüksəlsə də, əldə edilmiş səviyyəni hələ də kafi hesab etmək çətindir. Məsələn, 2000-ci illə müqayisədə taxılın bir hektardan məhsuldarlığı 2012-ci ildə 6,7% artsa da, əldə edilmiş 25,4 sent/ha məhsuldarlıq potensial məhsuldarlıqdan aşağıdır. Respublikada 2007-ci ildən başlayaraq fəal subsidiyalaşdırılan taxılçılıqda əldə olunan irəliləyişdə intensiv inkişaf amili arzuolunan səviyyə reallaşmır.

Müxtəlif relyefli ərazilərdə torpağın şumlanması, hamarlanması, malalanması, səpin və digər aqrotexniki əməliyyatlar üçün texniki vasitələr kifayət qədər deyildir və bir çox hallarda komplektləşdirməyə imkan vermir. Kənd təsərrüfatının texniki təminatının bəzi göstəricilərinin, o cümlədən 1000 ha əkinə düşən traktorların, 100 traktora düşən kotan, kultivator, toxumsəpən və otbiçənlərin sayının dinamikası aşağıdakı cədvəldə verilmişdir.



Cədvəl 1

Azərbaycanda kənd təsərrüfatının texniki təminatının bəzi göstəricilərinin dinamikası

| Göstəricilər | 1999 | 2005 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2012-ci il 1999-cu ilə nisbətən, %-lə |
|---|---|---|---|---|---|---|---|---|
| 1000 ha əkinə düşən traktor, ədəd | 16,8 | 11,9 | 14,4 | 12,6 | 13,4 | 13,3 | 12,8 | 76,2 |
| Bir traktora düşən əkin sahəsi, ha | 60 | 84 | 69 | 79 | 75 | 75 | 78 | 130 |
| 100 traktora düşür: | | | | | | | | |
| -kotan | 22 | 20 | 15 | 15 | 16 | 16 | 16 | 72,7 |
| -kultivator | 14 | 7 | 5 | 5 | 4 | 4 | 4 | 28,6 |
| -toxumsəpən | 17 | 9 | 9 | 9 | 9 | 9 | 9 | 53.0 |
| -otbiçən | 4 | 7 | 3 | 4 | 4 | 4 | 4 | 100.0 |

Kənd təsərrüfatında intensiv inkişaf amilləri aqroiqlim potensialını fəallaşdırmaq baxımından geniş imkanlara malikdir. Bununla belə, həmin imkanlar öz - özünə gerçəkləşmir və aqrar islahatlar nəticəsində meydana gələn xırda kənd təsərrüfatı istehsal qurumlarının kooperasiyasının, istehsalın adekvat yerləşdirilməsi və ixtisaslaşmasının, innovasiya bazarında fəallığın dəstəklənməsini və digər bu kim tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Kənd təsərrüfatı istehsalının intensivləşmə səviyyəsini xarakterizə edən göstərici kimi, əsas istehsal fondlarının strukturunda maşın və avadanlıqların xüsusi çəkisi 2002-ci ilə qədər azalmış, bir traktora düşən əkin sahəsinə görə əhəmiyyətli artım əldə edilmişdir.

Kənd təsərrüfatının mineral gübrələr və kimyəvi preparatlarla təminatında əldə edilən irəliləyişləri daha da yüksəltmək üçün kifayət qədər imkan vardır (cədvəl 2).

1999-cu ildə bir kombayna 135 ha dənli bitkilər sahəsi düşürdüsə, 2012-ci ildə bu rəqəm 578 ha-ya çatmış, başqa sözlə 4,3 dəfə artmışdır. Görülən tədbirlərə baxmayaraq, sahədə istismar müddətini bitirmiş, lakin hələ də istifadə olunan traktorların və kombaynların ümumi sayının 65-70%-dən istifadə olunur.

Kənd təsərrüfatı məhsullarının qiymət tənzimlənməsində fəallığının artırılmasına ehtiyac vardır. Bu, xüsusilə ilkin halda müxtəlif kanallarla satış imkanları məhdud olan texniki bitkilərə aiddir. Bitkiçilik məhsulları üzrə əvvəlki ilə nisbətən hesablanan istehsalçı qiymətləri indeksində, 2006 - 2012–ci illər üzrə ən böyük artım 2007-ci ildə, azalma isə 2009-cu ildə

müşahidə olunmuşdur (şəkil 2). Bununla belə, bitkiçilik və heyvandarlıqda məhsulların əvvəlki ilə nisbətən hesablanan istehsalçı qiymətləri indekslərinin dinamikasında müsbət meyillərin güclənməsi üçün əlverişli şərait formalaşır. 2006 - 2009-cu illər ərzində bütövlükdə heyvandarlıq məhsullarının əvvəlki ilə nisbətən hesablanan istehsalçı qiymətləri indeksində, tərəddüdlərlə enmə, 2010 - 2012-ci illərdə isə artım müşahidə olunur.

Cədvəl 2

Kənd təsərrüfatı müəssisələrində əkin sahələrinə mineral gübrələrin verilməsi (100% qidalı maddə hesabı ilə)

| Göstəricilər | 1999 | 2007* | 2009 | 2010 | 2011 | 2012 | 2012-ci il 1999-cu ilə nisbətən (dəfə) |
|---|---|---|---|---|---|---|---|
| Cəmi, min ton | 1,3 | 22,8 | 22.8 | 31,7 | 20,4 | 28,1 | 21,6 |
| 1 ha əkinə, kq | 5 | 16 | 12 | 18 | 12 | 16 | 3,2 |
| O cümlədən: -taxıla | 5 | 22 | 14 | 20 | 15 | 20 | 4 |
| -pambığa | 11 | 42 | 27 | 25 | 30 | 31 | 2,8 |
| -tütünə | 4 | 3 | 4 | 76 | 34 | 65 | 16,2 |
| -kartofa | - | 3 | 12 | 16 | 10 | 28 | - |
| -tərəvəz bostana | 1 | 7 | 12 | 37 | 19 | 20 | 20 |
| -yem bitkilərinə | - | 4 | 3 | 4 | 2 | 5 | - |
| -bağlara | - | 8 | 7 | 20 | 9 | 11 | - |
| -üzümlüklərə | - | 20 | 2 | 15 | 6 | 6 | - |
| Gübrələnmiş sahələrin ümumi əkində xüsusi çəkisi, %-lə | 13 | … | 31 | 34 | 54 | 61 | 4,7 |

*2007-ci ildən fərdi sahibkarlar, ailə-kəndli və ev təsərrüfatları daxil olmaqla.

Kənd təsərrüfatında istehsal xərclərinin strukturunda əməyin ödənişinin xüsusi çəkisi 2000 - 2011-ci illər ərzində artmışdır. Məhz həmin dövrdə əsas vəsaitlərin amortizasiyasının xüsusi çəkisində azalma baş vermişdir. Haqqında danışılan dövrdə, material xərclərinin xüsusi çəkisi 56,7%-dən 55,3%-ə enmişdir (cədvəl 3). Kənd təsərrüfatı istehsalına material xərclərinin strukturunda kənar təşkilatların göstərdikləri xidmətlərə görə ödənişlərin xüsusi çəkisinin dinamikası, tənzimlənən əlaqələrin artmasını göstərir.



Material xərclərinin strukturunda ən böyük paya malik bu xərc maddəsinin qeyd olunan dinamikası torpağın şumlanması, malalanması, məhsul yığımı və digər əməliyyatlarda kənar təşkilatların fəallaşan iştirakına dəlalət edir.




Şək. 2.Kənd təsərrüfatı və onun ayrı-ayrı sahələrinin məhsullarının, əvvəlki ilə hesablanan istehsalçı qiymətləri indeksi (faizlə)

Cədvəl 3

Kənd təsərrüfatında istehsal xərclərinin strukturu (%-lə)

| | 1995 | 2000 | 2005 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|
| Əməyin ödənişi | 33.7 | 19.3 | 29.5 | 30.2 | 29.6 | 24,4 | 30,9 | 26,7 |
| Material xərcləri | 47.8 | 56.7 | 59.1 | 49.3 | 46.2 | 50,4 | 55,3 | 50,4 |
| Əsas vəsaitlərin amortizasiyası | 1.6 | 7.1 | 9.3 | 4.1 | 4.6 | 5,9 | 4,6 | 3,9 |
| Sığorta ödəmələri | 3.3 | 0.3 | 0.3 | 0.2 | 0.2 | 0,3 | 0,1 | 0,5 |
| Sair | 13.6 | 16.6 | 1.8 | 16.2 | 19.4 | 19,0 | 9,1 | 18,5 |
| Xərclər, cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |

2005 - 2012–ci illərdə, sahibkarlıq subyektləti üzrə kənd təsərrüfatı məhsullarının satışının rentabellik səviyyəsi azalaraq 71,9%-dən 42,3%-ə enmişdir. Belə vəziyyət dünya iqtisadi böhranı, sahənin satın aldığı resursların bahalaşması və qismən sahədaxili rəqabətin güclənməsi ilə əlaqədardır.

Aqrar sahədə intensiv inkişafın maliyyə vasitəsi ilə tənzimlənməsinin məhsul istehsalının güzəştli kreditləşdirilməsinə mühüm təsir göstərir. Sahibkarlığa Kömək Milli Fondu (SKMF) tərəfindən kreditləşdirilən müvafiq layihələrin sayı artmış və miqyası əhəmiyyətli dərəcədə genişləndirilmişdir.

Hazırda bu və ya digər sahədən əldə edilən kənd təsərrüfatı məhsullarının dəyərinin torpağın qiymətində iştirakı ərazidə aparıcı sahə-

nin orta məhsuldarlığı, əsas məhsulun satış qiyməti, məhsul vahidinin maya dəyəri, məhsul vahidinə düşən normativ gəlirdə öz əksini tapır. Araşdırmalar göstərir ki, fəaliyyətdə olan tənzimlənmə sistemi, torpağın iqtisadi qiymətləndirilməsi zamanı digər amillərlə yanaşı təsərrüfatçılığın təşkilati forması və ixtisaslaşması kimi amillərin nəzərə alınması da zəruridir.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının sahibkarlıq qurumlarının fəaliyyət mexanizmi və fəaliyyətdə olan tənzimlənmə sistemi qarşılıqlı surətdə uzlaşdırılmalıdır. Respublikanın regionlarının sosial – iqtisadi inkişafı üzrə Dövlət Proqramının uğurlu icrası ərazi məhsulları istehsalının inkişafını dəstəkləməklə kənd rayonlarında yeni iş yerlərinin açılmasını daha da sürətləndirir. Həmin prosesin aqrar iqtisadiyyatın mövcud tənzimlənmə sisteminə təsiri və yeni yanaşmaların zəruriliyi hərtərəfli qiymətləndirilməlidir.

Transformasiya prosesləri geniş təkrar istehsalın tələblərinə adekvat struktur dəyişikliklərini şərtləndirməklə dövlətin sahələrarası və qismən sahədaxili əlaqələrin tənzimlənməsində rolunu artırır. İxtisaslaşma konkret halda, aqrar fəaliyyətin iqtisadi və sosial səmərəliliyinin yüksəldilməsinə yönəldilməklə, kənd təsərrüfatının, son vaxtlar gündəliyə çıxmış çoxfunksiyalılığının təminatına şərait yaratmalıdır. Əksər kənd təsərrüfatı məhsullarının əkin sahələrinin ciddi surətdə artmadığı şəraitdə, intensiv inkişaf amilləri hesabına məhsul istehsalında artım əldə olunmuşdur. Bütün təsərrüfat kateqoriyalarında əkin sahələrinin strukturunda, demək olar ki, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarının 2000 - 2012-ci illər ərzində əkin sahələrinin strukturuna analoji dinamika müşahidə edilmişdir. Tətqiqat göstərir ki, ixtisaslaşma risklərin minimumlaşdırılmasının təsirli istiqamətidir. Belə ki, hər hansı məhsul və ya xidmət növü üzrə ixtisaslaşma azad sahibkarlıq şəraitində bazar risklərinin qarşısının alınması imkanlarını genişləndirir. Bununla belə, aqrar sahədə istehasalın ixtisaslaşması və təmərküzləşməsi arasındakı qarşılıqlı əlaqə risk ehtimalının səviyyəsinə ikili təsir edir. Söhbət əsasən təsərrüfat fəaliyyəti ilə əlaqədar risklərdən gedir. Məsələ ondadır ki, bu və ya digər bitkiçilik məhsulunun əkin sahəsi genişləndikcə, xəstəliklər və zərəvericilərlə bağlı risklər artır, onlara qarşı tədbirlər daha böyük əmək və vəsait sərfi tələb edir. Kənd təsərrüfatı istehsalında striktur dəyişiklikləri, o cümlədən ixtisaslaşmadakı dəyişikliklər, qismən ətalətli xarakter daşıyır. Belə vəziyyət tarixi və digər amillərin təsirindən irəli gəlir. İnfrastruktur amili də az rol oynamır. Məsələ ondadır ki, sahibkar və ya, ailə kəndli təsərrüfatının başçısı nəyi və nə qədər istehsal etmək barədə qərar verərkən, adətən istehsal və satış üzrə real infrastruktur imkanlarından çıxış edir.



Sənayedən fərqli olaraq kənd təsərrüfatı məhsulu istehsalçısı ən yaxın perspektivə gözlənilən infrastruktur layihələrinin yeni imkanlarını nəzərə alamaqla ixtisaslaşmada dəyişikliklər etməyə cəsarət etmir. Onlar həmin infrastruktur layihələrinin reallaşması vaxtını gözləyirlər.

Regional ixtisaslaşma ölkə miqyasında kənd təsərrüfatı istehsalının ixtisaslaşması tələblərinə adekvatlıq baxımından fərqli xarakterə malik ola bilər. O cümlədən, regional asimmetrik, harmonik və bitərəf xarakterli ixtisaslaşma istiqamətləri aqrar fəaliyyət baxımından əlahiddə diqqətə malikdir. Görmək çətin deyildir ki, ixtisaslaşmanın regional modifikasiyaları kənd təsərrüfatının sahə strukturunun regional fərqlərində, o cümlədən regionların bazara müxtəlif uyğunlaşma dərəcəsinin müxtəlifliyində ifadə olunur.

Artıq regional xüsusiyyətlərin kənd təsərrüfatı istehsalının ixtisaslaşmasına təsirinin ikili xarakterinə dəlalət edən inandırıcı faktlar vardır. Konkret regionun özünəməxsus aqroiqlim potensialının tarixən məlum məhsul istehsalında nisbi üstünlükləri şərtləndirir. Digər tərəfdən, həmin xüsusiyyətlər bazarda mövqeni möhkəmləndirmək baxımından, həmişə pozitiv nəticələr vermir. Məsələ ondadır ki, aqroiqlim potensialının regional məhdudiyyətləri, təbii ki, miqyas effektinin gerçəkləşdirilməsinə lazımi şərait yaratmır.

**"Kənd təsərrüfatının intensiv inkişafının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi" adlı üçüncü fəsildə** kənd təsərrüfatında intensivləşməyə dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsi və kənd təsərrüfatı məhsulları ixracının dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi vasitələri müəyyənləşdirilmiş, intensiv inkişafın tənzimlənməsi mexanizminin formalaşması istiqamətləri əsaslandırılmışdır.

Azərbaycanda həyata keçirilən aqrar islahatların müasir mərhələsində intensivləşmə və innovasiyalı inkişafın stimullaşdırılması prioritet istiqamətlərdəndir. Həmin prioritetlərin reallaşmasında dövlət və məqsədli proqramların koordinasiyası sistemi təkmilləşdirilməlidir. Sadalanan vəzifələrin icrası mühitinin daha da yaxşılaşdırılması üçün görülən işlərin innovasiya yönümü gücləndirilməli, intensiv inkişaf amillərinin təsiri detallaşdırılmış surətdə nəzərə alınmalıdır.

Aqrar sahəyə və kənd təsərrüfatı istehsalının intensivləşməsinə dövlət dəstəyi tədbirlərinin səmərəliliyi, ilk növbədə aşağıdakı tələblərə riayət olunması hesabına təmin edilə bilər: - dövlət dəstəyi tədbirlərinin maliyyələşdirilməsi mexanizmində intensivləşmənin prioritetliyi; - birbaşa və dolayı dövlət subsidiyalaşdırma tədbirlərinin vahid kontekstdə nəzərdən keçirilməsi və ciddi koordinasiyanın təmin olunması; - subsidiyalaşdırma prosesinin, bütün mərhələlərdə və istisnasız şəffaflığı; - güzəştlərin birmənalı ünvanlığı; - dövlət dəstəyi tədbirlərinin aralıq nəticələrinin səmərəliliyinin mo-

nitorinqi; - transaksion məsrəflərin minimumlaşdırılması və i.a.

Birbaşa dövlət kompensasiya ödənişlərini, təbii fəlakətlərdən dəyən ziyanın ödənilməsi və istehsalın yenidən təşkili (əkin sahələrinin ixtisar edilməsi, kənd təsərrüfatı heyvanlarının sayının ekoloji tələblərə uyğunlaşdırılması və s.) nəticəsində dəyən zərərə görə ödəmələri əhatə edən birbaşa dövlət subsidiyalaşdırma tədbirlərinin normativ - hüquqi bazasının təkmilləşdirilməsi kənd təsərrüfatı istehsalının intensivləşməsinə dövlət dəstəyi tədbirlərinin səmərəliliyinin yüksəldilməsinin mühüm istiqaməti olmalıdır.

Araşdırmalar göstərir ki, dövlətin dolayı subsidiyalaşdırma tədbirləri aqrar bazarının inkişafının müxtəlif səviyyələrində fərqli yanaşmalar tələb edir.

Kənd təsərrüfatı məhsullarının daxili qiymətlərinin bazar qiymət müdaxiləsi hesabına dəstəklənməsi üçün: - kvotaların tətbiqi və onun yaratdığı mühitdə təcrübəsi olmalı; - kənd təsərrüfatı təyinatlı torpaqlardan və xüsusilə əkin sahələrindən istifadənin elmi cəhətdən əsaslandırılmış istifadəsi rejiminin tətbiqi üzrə işlək mexanizm yaradılmalıdır.

Aqrar sahənin inkişaf etdiyi ölkələrin qiymət tənzimlənməsi sferasında əldə etdiyi təcrübənin, yerli xüsusiyyətləri nəzərə almaqla tətbiqi kənd təsərrüfatında intensivləşməyə dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsinin mühüm istiqamətidir. Bu baxımdan, qiymətlərin tərəddüdünün yuxarı və aşağı hədlərinin təyin olunması, dövlətin dəstəkləməyə çalışdığı indikativ və ya şərti qiymətlərin müəyyənləşdirilməsi məqsədəuyğundur.

Qiymət, tələbat, gəlir səviyyəsi və s. haqqında, dəstəklənən aqrar sahənin hər bir iştirakçısının tam məlumatlı olması rəqabət mühitinin sağlamlaşdırılmasının mühüm şərtidir. Tam informasiyaya malik olan rəqabət iştirakçısı öz vəsaitini daha sərfəli istiqamətə yönəltməsi imkanları daha genişdir. Həmin imkanların gerçəkləşdirilməsi üçün satınalmalarda zəmanətli qiymətlərin tətbiqi müddəti və onların əhatə dairəsi müəyyənləşdirilməlidir. Eyni zamanda bu və ya digər kənd təsərrüfatı məhsuluna tələbin qiymət dəyişikliklərinə münasibətdə elastikliyi, zəmanətli qiymətlərlə satışın həcminin elastiklik səviyyəsindən asılılığı və yerli istehsalçıların rəqabət qabiliyyətinə təsir edən digər parametrlər, o cümlədən: aqrar bazarda zəmanətli minimal qiymətlərin tətbiqi və tələbin azalması arasında asılılıq qiymətləndirilməli, müvafiq tələbin azalmasının, kənd təsərrüfatı məhsulunun istehsalının subsidiyalaşdırılmasına ayrılan büdcə vəsaitinin istifadə səmərəliliyinə və minimal zəmanətli qiymətlərlə məhsul satışının genişlənməsinin dövlət satınalma xərclərinə təsiri; qeyd olunan halların daxili istehsalçıların rəqabət qabiliyyətinə təsiri xarakteriizə edilməlidir.

İntensivləşmə proseslərinin fəal dəstəkləndiyi dövrdə kənd təsərrüfatı



istehsalına ayrılan subsidiyaların verilməsi və istifadəsi mexanizmin təkmilləşdirilməsi elmi tədqiqat işlərinin prioritet istiqaməti olmalıdır. Araşdırmalar əlaqələndirilməli və əkin sahələri üzrə subsidiyaların diferensiyallaşdırılması, eləcə də heyvandarlıqda subsidiyaların verilməsi ilə əlaqədar mexanizmlərin hazırlanması işi davam etdirilməlidir.

Kənd təsərrüfatında intensivləşməyə dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsində indikativ planlaşdırma əhəmiyyətli rol oynaya bilər. Belə ki, aqrar iqtisadiyyatın inkişafının tənzimlənməsində əsas alətlərdən olan indikativ planlaşdırma: dövlət dəstəyi tədbirlərinin gedişi və sahibkarlığın fəaliyyət mühitindəki dəyişiklikləri xarakterizə etmək, sahibkara verilən tam fəaliyyət azadlığı şəraitində, onun və dövlətin sahəyə himayə göstərməsinin məqsədlərinin uzlaşması imkanlarını əks etdirir. Bununla belə, indikativ planlaşdırma qarşıya qoyulan məqsədin ifadəsi baxımından, adətən göstəricilərin daha dərin detallaşdırılmasını nəzərdə tutmur. İndikativ planlaşdırmanın təşviqedici funksiyası dövlət tərəfindən müxtəlif stimulların tətbiq edilməsində, o cümlədən, müstəqim və ya qeyri - müstəqim subsidiyalaşdırmada, güzəştli amortizasiya ayırmalarında, məqsədli kreditlərdə ifadə olunur. Aqrar sahədə haqqında danışılan funksiya kənd təsərrüfatı istehsalında intensivləşməyə dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsinə xidmət etməlidir.

İntensivləşmənin, o cümlədən məhsuldarlığın dəyişməsinin və əlavə vəsait qoyuluşlarından əldə edilən gəlirin manitorinqinin nəticələri sahəyə dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsi üçün ilkin məlumat bazası yarada bilər. Bununla belə, həmin manitorinqin həyata keçirilməsinin institutsional və informasiya problemləri aradan qaldırılmalı, eyni zamanda bazar infrastrukturları ilə digər institutlar arasındakı münasibətlərində çevikliyin zəruri səviyyəsi əldə edilməlidir.

Dövlət tənzimlənməsi olmadan kənd təsərrüfatı istehsalının intensivləşməsinin investisiyalaşmasında ciddi müsbət nəticələr əldə etmək mümkün deyildir. Belə ki, aqrar sahədə əlverişli investisiya mühitinin təşəkkülü kənd təsərrüfatı istehsalı və sıx iqtisadi - texnoloji əlaqələrə malik fəaliyyət sahələrində işgüzarlıq və təşəbbüskarlığa dövlət himayəsinin davamlılığı, sağlam rəqabət şəraitinin dəstəklənməsi, birbaşa müdaxilələrin aradan qaldırılması, antiböhran tədbirlərinin və digər qabaqlayıcı tədbirlərin kompleks xarakteri kimi amillərin təsiri altında baş verir.

Maliyyə investisiyalarına nisbətən aşağı likvidli sayılan birbaşa investisiyaların riskliliyi, hər şeydən əvvəl fəaliyyətin texniki və texnoloji təminatı səviyyəsindən asılıdır. Kənd təsərrüfatının maddi - texniki bazasının yeniləşdirilməyə böyük ehtiyacını nəzərə alan intensiv inkişaf konsepsiyası

tənzimləmə sisteminə, xüsusilə intensiv inkişafın investisiya proseslərinin tənzimlənməsi mexanizminə qarşı ciddi tələblər qoyur. İlk növbədə, bu fiziki köhnəlmiş və ya mənəvu aşınmış maşın və avadanlıqların əvəzlənməsi prosesinin sürətləndirilməsi üçün tezləşdirilmiş amortizasiya siyasətinin reallaşdırılmasını nəzərdə tutur. Kənd təsərrüfatı istehsalının intensivləşməsi mənfəətin kifayət qədər artması və rentabelliyin məqbul səviyyəsinin əldə edilməsi sayəsində mümkündür. Rentabelliyin məqbul səviyyəsi intensiv inkişaf tələblərinə müvafiq investisiya qoyuluşları ilə yanaşı, əməyin adekvat ödənişinə imkan verməlidir.

Məqsədli proqramlar əsasında kənd təsərrüfatının investisiya cəlbediciliyinin artırılması istiqamətlərinin reallaşdırılması intensiv inkişaf edən aqrar sahəyə investiya qoyuluşlarının stimullaşdırılması, yenidən investisiyalaşma proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi və digər bu kimi məsələləri əhatə etməlidir. Kənd təsərrüfatı istehsalının intensivləşməsi şəraitində investisiya proseslərinin tənzimlənməsi mənəvi cəhətdən köhnəlmiş, material və enerji tutumu yüksək olan maşın və avadanlıqların, ekoloji ekspertizadan keçməmiş texnologiyaların tətbiqi imkanlarını istisna etməlidir.

Kənd təsərrüfatında istifadə edilən vasitələr elmtutumlu və innovasiya yönümlü fəaliyyət rejimlərinin tələblərinə uyğunlaşdırılmalı, investisiya qoyuluşlarının aqrar sahədə səmərəli nisbətləri təmin olunmalıdır. Həmin nisbətlər istehlak və yığım, tələb və təklif kimi makroiqtisadi göstəricilərin formalaşdırdığı mühitə uyğun olmaqla bərabər, kənd təsərrüfatı istehsalı və aqroemal proseslərinə edilən müxtəlif güzəştlər, xammal və hazır məhsulun xarici ticarətində çevik gömrük siyasəti sayəsində təmin oluna bilər.

İstehsal və əmək dövrlərinin kənd təsərrüfatında üst - üstə düşməməsi, bir çox sahələrə nisbətən burada vəsaitlərin dövriyyə sürətinin aşağı olması ilə nəticələnir. Odur ki, kənd təsərrüfatında vəsaitlərin məqbul dövriyyə sürətinin əldə edilməsi üçün əsaslandırılmış və çevik tənzimləyici mexanizm qurulmalıdır. İnvestisiya mühitinin dayanıqlığı və tərəfdaşlıq əlaqələrinin etibarlıq səviyyəsi aqrar istehsalının gəlirlərini müəyyənləşdirən başlıca amillərdəndir. İnvestisiya fəaliyyətində tərəfdaşlıq əlaqələrinin etibarlıq səviyyəsi yüksəldikcə investorların sayı artdığından, onların əldə etdiyi mənfəətin bir qədər azalması baş verə bilər. Odur ki, aqrar istehsalın intensiv inkişaf konsepsiyasının əsaslandırılması prosesində investisiya cəlbediciliyi, vəsait qoyuluşunun əlverişlilik dərəcəsini müəyyənləşdirmək üçün işgüzar fəallıq, səmərəlilik, maliyyə dayanıqlığı və ödəniş qabiliyyəti göstəricilərindən istifadə edilməsi məqsədəuygundur. Sığorta işinin səmərəliliyi və investisiya fəallığı arasında düz mütənasiblik vardır. Risklərdən sığortalanması səmərəli təsərrüfatçılıq üçün zəruri olan etibarlı zəmanət mexanizmi formalaşdırmaqla, sahənin investisiya tələbatının ödənilməsində mühüm rol oynayır.



Aqrar sahənin intensiv inkişafının investisiya və kredit mühitinin səciyyələndirilməsi, investisiya proseslərinin çevik tənzimlənməsi imkanlarının qiymətləndirilməsi dövlətin proteksionist siyasətinin nəticələri və perspektivlərini, o cümlədən subsidiyalaşma mexanizminin formalaşması mərhələlərinin xüsusiyyətlərini, sahədə rəqabət mühitinin vəziyyətini nəzərə almağı tələb edir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçılarının rəqabət qabiliyyəti yüksəldikcə investisiya mühiti yaxşılaşırsa, eyni zamanda, yaxın perspektivə sahənin kreditə olan tələbatını bir qədər aşağı salır. Araşdırmalar göstərir ki, bu halda, xüsusilə intensivləşmə şəraitində investisiya fəallığının kooperasiya və inteqrasiya əlaqələrindən asılılığı güclənmiş olur. Amortizasiyanın qeyri – xətti metodlarının tətbiqi üçün, sürətlənmiş amortizasiya, xüsusi ilkin amortizasiya güzəşti və digər metodların müqayisəli qiymətləndirilərək istifadəsi üçün real şərait formalaşır.

Aqrar sahə məhsullarının yerli istehsalına himayəni və rəqabət mühitinin sağlamlaşdırılmasını nəzərdə tutan intensiv inkişaf strategiyası xarici ticarət əlaqələrinin liberallaşdırılması tələbləri ilə uzlaşdırılmalıdır. Kənd təsərrüfatı məhsulları ixracının dövlət tənzimlənməsi aqrar ixrac potensialını şərtləndirən aşağıdakı amillərin səciyyələndirilməsini tələb edir: - ixrac və innovasiya potensialının qarşılıqlı əlaqə və asılılığı, iqtisadi, idarəetmə, ekoloji, sosial və digər risklərin xarakteri və onların ixrac potensialına təsiri, kənd təsərrüfatı istehsalı prosesinin rəqabətə davamlılığı və ixrac məhsullarının rəqabət qabiliyyəti.

Kənd təsərrüfatı məhsulları ixracının dövlət tənzimlənməsi milli aqrar istehsalçılarının rəqabətədavamlı fəaliyyətinin dəstəklənməsinə və dünya bazarında onların mövqe qazanmasına, ölkəyə valyuta daxilolmalarının artırılmasına, kənddə məşğulluğun səviyyəsinin yüksəldilməsinə, innovasiya bazarında iştirakın stimullaşdırılmasına yönəlməlidir. Bilavasitə işgüzar fəallığa və iqtisadi artıma xidmət etməklə, ixrac potensialını dəstəkləyən vasitələrə, ilk növbədə - istehsalçılara dövlət sifarişi, zərərin və bəzi borcların silinməsi, informasiya – məsləhət xidmətinin büdcədən maliyyələşən hissəsinin artırılması, kənd təsərrüfatı və müvafiq emal müəssisələrinə vergi güzəştlərinin sistem halına gətirilməsi tədbirləri, çevik və tezləşdirilmiş amortizasiya siyasəti, güzəştli kreditləşdirmə aid edilməlidir.

Kənd təsərrüfatı məhsulları ixracının dövlət tənzimlənməsində mühit yaradan amillərə əsaslandırılmış və vahid kontekstdə yanaşma olmalı, yerli aqrar istehsalçının rəqabət qabiliyyəti və ixracın təşviqinə məsrəflər,

istehsalın ixtisaslaşmasının ixrac yönümü, ixracın subsidiyalaşdırılması və idxalın əvəz edilməsinə subsidiyalar, aqrar sahəyə büdcədən maliyyələşən dövlət himayəsi tədbirlərinə və kənd təsərrüfatı məhsullarının idxalına məsrəflər müqayisəli qiymətləndirilərək qərar qəbul edilməlidir.

Kənd təsərrüfatı məhsulları xarici ticarətinin liberallaşdırılması və aqrar sahəyə büdcədən maliyyələşən dövlət himayəsi sistemi arasında dinamik konsensusun əldə edilməsi, o cümlədən: - aqrar sahənin stimullaşdırılması və kənd təsərrüfatı məhsulları xarici ticarətinin liberallaşması arasında manevr imkanlarını genişləndirir, daxili aqrar bazarın qorunmasına yönəlmiş müdafiə mexanizmində inhisarçılıq meyillərininə qarşı tədbirlərin də təsir gücünü artırır.

Milli iqtisadi təhlükəsizlik meyarlarına adekvat kənd təsərrüfatı məhsullarının xarici ticarətinin tənzimlənməsi sistemi, ilk növbədə - ərzaq təhlükəsizliyinin təminatı səviyyəsini, yerli istehsalın rəqabət qabiliyyətinin dəstəklənməsi vəziyyətini, daxili bazarının gömrük müdafiəsi səviyyəsini göstəriciləri ilə səciyyələndirməlidir. Aqrar istehsala subsidiyalar və daxili istehsalçıların rəqabət qabiliyyətinini dəstəklənməsi tədbirlərinə məsrəflər arasındakı nisbətin dinamikası, xarici ticarətin tənzimlənməsinin ümumi kursunda nəzərdən keçirilməlidir. Kənd təsərrüfatı məhsulları ixracının tənzimlənməsinin tarif və qeyri - tarif metodlarının üzvi vəhdəti təmin edilməli və sahənin inkişaf səviyyəsi, aqrar ixrac potensialın gerçəkləşməsi imkanları nəzərdə alınmaqla qərar qəbul edilməlidir.

Tranzaksiya xərclərinin aşağı salınması üçün tədbirlər davam etdirilməli, o cümlədən: - kənd təsərrüfatı məhsulları və ərzaq mallarının idxalı prosesində ölkəyə gətirilən məhsulların mənşəyinin aşkarlayan məlumatların dolğunluğu təmin edilməli, idxal edilən ərzaq malları, birmənalı olaraq öz adı ilə təqdim olunmalı, xarici ticarətdə liberallaşma və şəffaflıq bir – birini tamamlamalıdır.

Dissertasiya işinin nəticə hissəsində əldə edilmiş nəticələrin nəzəri - praktik əhəmiyyəti ifadə edilmişdir.

Dissertasiyanın mövzusu üzrə aşağıdakı elmi əsərləri dərc edilmişdir:

1. “Kənd təsərrüfatının intensiv inkişafının tənzimlənməsinin dünya təcrübəsi: müqayisəli qiymətləndirmə”, Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat seriyası №2. Bakı, 2010, səh. 151-156.

2. “Aqrar islahatlar şəraitində intensiv inkişafın tənzimlənməsi məsələləri”, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Elmi-Tətqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu, “İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması” problemlərinə həsr edilmiş beynəlxalq elmi - praktik konfransın materialları №2. Bakı, 2010,



səh. 48-50.

3. “İntensivləşmənin investisiya proseslərinin tənzimlənməsi mexanizminin formalaşması”, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzi, Azərbaycan Elmi - Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu, Elmi Əsərləri №3. Bakı, 2010, səh. 90-95.

4. “Aqrar islahatlar şəraitində intensiv inkişafın tənzimlənməsinin aktual problemləri”, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Elmi Əsərlər № 4. Baki, 2010, səh. 278-283.

5. “Kənd təsərrüfatında intensiv inkişafın nəzəri aspektləri”, Azərbaycan Aqrar Elmi elmi - nəzəri jurnal, Azərbaycan Respublikası Kənd Təsərrüfat Nazirliyinin elmi - nəzəri jurnalı №6. Bakı, 2010, 116-118.

6. “Kənd təsərrüfatında ixtisaslaşmanın və onun tənzimlənməsinin bəzi aspektləri”, Azərbaycan Respublikası Odlar Yurdu Universiteti, Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri №30. Bakı, 2010, səh. 86-91.

7. “Kənd təsərrüfatı istehsalının tənzimlənməsinin mövcud sisteminin təhlili”, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycanin vergi xəbərləri №1/2011 resenziyalı, aylıq elmi jurnal. Bakı, 2011, səh. 85-94.

8. “Совершенствование системы государственного регулирования экспорта сельскохозяйственной продукции”, Міністерство Освіти і науки України, Національний Університет «Львівська Політехніка», Вісник Національного Університету «Львівська Політехніка» (ЛОГІСТИКА), Львів – Видавництво Національного Університету «Львівська Політехніка» № 706. Львів, 2011, стр. 9 - 15.

9. “Kənd təsərrüfatının intensiv inkişafının təkmilləşdirilməsi - dövlət dəstəyi”, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Aqrar Elm Mərkəzi, Az.ETKTİ və Tİ, Aqrar iqtisadiyyat: müstəqilliyin 20 ilində mövzusunda beynəlxalq elmi - praktik konfransın materialları. Bakı, 2011, səh. 243 - 245.

10.“Kənd təsərrüfatında intensivləşməyə dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsi məsələləri”, Azərbaycan Respublikası Qafqaz Universiteti, "Journal of Qafqaz University" beynəlxalq jurnalı, İqtisadiyyat və İdarəetmə seriyası № 32, Bakı, 2011, səh. 105 - 114.

11.“Kənd təsərrüfatında intensivləşməyə dövlət dəstəyi ərzaq təhlükəsizliyinin təminatı kimi”, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial - iqtisadi problemləri mövzusunda beynəlxalq elmi - praktik konfransın materiallar və tezisləri. Bakı, 2011, səh. 239 - 240.

12.“İslahatların müasir mərhələsində kənd təsərrüfatı istehsalının in-

tensiv inkişafı və tənzimlənməsi", Azərbaycan Respublikası Prezidenti Yanında Strateji Araşdırmalar Mərkəzi, "Strateji təhlil" analitik jurnalı № 4. Bakı, 2012, səh. 173 - 180.

13.“Kənd təsərrüfatında intensivləşmənin investisiyalaşdırımasının və ixracın dəstəklənməsinin tənzimlənməsi”, "Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri" beynəlxalq elmi - texniki jurnalı Cild 4, № 1. Bakı, 2012, səh. 80 - 87.

14.“Stimullaşdırma kənd təsərrüfatında intensivləşməyə dövlət dəstəyi kimi”, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Aqrar Elm Mərkəzi, Az.ETKTİ və Tİ, Az.ETKTİ və Tİ-nin 50 illik yubileyinə həsr olunmuş "Aqrar iqtisadiyyatın aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2012, səh. 463 - 465.

15.“Характеристика среды интенсивного развития сельского хозяйства в аграрном секторе Азербайджана”, Российская Федерация, "Аграрная Россия" научно - производственный журнал № 5. Москва, 2013, стр. 39 - 42.

16.“Kənd təsərrüfatının intensiv inkişaf mühitinin xarakteristikası və onun tənzimlənməsi vəziyyəti”, "Yaşıl çay" elmi - praktik, publisistik jurnalı № 5. Lənkəran, 2013, səh. 78 - 81.



## Р Е З Ю М Е

**Ахмедзаде Эмин Немат оглы**

### Формирование механизма регулирование интенсивного развития сельского хозяйства

В условиях обострении конкуренции необходимо оценить возможности повышение государственной поддержки интенсивного развития сельского хозяйства, определить методов и направлений реализации этих возможностей. Механизм регулирования интенсивного развития сельского хозяйства требует обоснование приоритетов развития, повышение инвестиционной привлекательности отрасли. Реформа регулирования сельскохозяйственного производства предусматривает поиска более эффективных методов интенсивного развития. Этим и обусловлена актуальность темы диссертационной работы.

Во введении диссертационной работы обосновывается актуальность темы, излагается состояние изученности проблемы, определяются цели и задачи исследования, информационная база, научная новизна и практическое значение исследования.

В первой главе работы исследуются сущность и научно-теоретические проблемы интенсивного развития, выявлены отраслевые особенности процесса, рассмотрены актуальные проблемы регулирования интенсивного развития, особое внимание уделено зарубежному опыту по регулированию интенсивного развития сельского хозяйства.

Во второй главе дана характеристика среды интенсивного развития, проанализирован ныне функционирующая система регулирования сельскохозяйственного производства, оценена сложившегося состояния специализации сельского хозяйства и ее регулирования.

В третьей главе диссертации обоснованы основные направления повышения эффективности государственной поддержки и формирования механизма регулирования инвестиционных процессов интенсивного развития отрасли, определены средства по совершенствованию системы регулирования экспорта продукциями сельского хозяйства.

В конце работы формулируются заключение и предложения, имеющие теоретическое и практическое значение.

## S U M M E R Y

**Emin Ahmadzadeh Nemat**

### Formation of the mechanism regulation of intensive development of agriculture

In conditions and aggravation of the competition it is necessary to estimate opportunities increase of the state support intensive development of agriculture, to define methods and the directions realization of these opportunities. The mechanism regulation intensive development of agriculture demands justification priorities development, increase investment appeal of branch. Reform of regulation agricultural production provides search of more effective methods intensive development. It also caused relevance subject dissertation work.

Relevance subject locates in introduction of dissertation work, the condition study problem is stated, the purposes and research problems, information base, scientific novelty and practical value of research are defined. In chapter one of work the essence and scientific-theoretical problems of intensive development are investigated, branch features of process are revealed, actual problems regulation intensive development are considered, the special attention is paid to foreign experiment on regulation intensive development of agriculture.

In chapter 2 the characteristic of the environment intensive development is given, is analysed nowadays functioning system regulation agricultural production, is estimated the developed condition of specialization agriculture and its regulation.

In a chapter 3 of the thesis the main directions of increase efficiency the state support and formation of the mechanism regulation investment processes intensive development of branch are proved, means are determined by improvement of system regulation export by agriculture produktion.

At the end of work results and the offers having theoretical and practical value are formulated.

Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 054, tiraj 100

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Ахмедзаде Эмин Немат оглы**

# Формирование механизма регулирование интенсивного развития сельского хозяйства

**5312.01 – «Экономика отрасли»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономики

**Гянджа – 2014**